**“Təhsil haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 9, maddə 684; 2011, 2, maddə 70; 2014, 1, maddə 3; 2015, 11, maddə 1266; 2016, 1, maddə 41, 11, maddə 1766; 2017, 2, maddə 145, 5, maddə 691, 7, maddələr 1277, 1300, 12 (I kitab), maddə 2202; 2018, 7 (I kitab), maddələr 1381, 1409, 11, maddə 2208; 2019, 5, maddə 798, 7, maddə 1190, 8, maddə 1382, 11, maddə 1684, 12, maddə 1881) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.0.55-ci maddədən “Azərbaycan Respublikasında hüquqi şəxs kimi dövlət qeydiyyatına alınmış, fəaliyyətinə lisenziya verilmiş” sözləri çıxarılsın;

1.2. 16.1-ci maddənin birinci cümləsindən “məktəbəqədər və ümumi” sözləri çıxarılsın;

1.3. aşağıdakı məzmunda 20.2-3-cü maddə əlavə edilsin:

“20.2-3. Yüksək texniki peşə təhsilini bitirərək subbakalavr peşə-ixtisas dərəcəsi almış şəxslər orta ixtisas təhsilini bitirmiş subbakalavrlara bərabər tutulur.”;

1.4. 21.2-ci maddənin birinci cümləsində “subbakalavr ixtisas dərəcəsinin” sözləri “subbakalavr peşə-ixtisas dərəcəsinin” sözləri ilə əvəz edilsin;

1.5. 24-cü maddə üzrə:

1.5.1. 24.1-ci maddədə “peşə-ixtisas təhsilinin hər hansı pilləsini” sözləri “ali, orta ixtisas və peşə təhsili pillələrinin hər hansı birini” sözləri ilə əvəz edilsin;

1.5.2. 24.2.4-cü maddədə “ali təhsil və orta ixtisas” sözləri “ali, orta ixtisas və yüksək texniki peşə” sözləri ilə əvəz edilsin;

1.5.3. 24.4-cü maddədə “peşə-ixtisas təhsili” sözləri “təhsil” sözü ilə əvəz edilsin;

1.6. 27.1-ci maddədə “Azərbaycan Respublikasında təhsil fəaliyyəti üçün lisenziyası olan və dövlət akkreditasiyasından keçmiş təhsil” sözləri “Təhsil” sözü ilə əvəz edilsin.

**Maddə 2.** “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 4, maddə 632, 12, maddələr 2017, 2036; 2017, 4, maddə 520, 5, maddə 743; 2018, 6, maddə 1187; 2019, 1, maddə 28, 5, maddə 797, 6, maddə 986, 8, maddə 1360, 11, maddə 1692, 12, maddə 1903) 1 nömrəli əlavə - “Lisenziya tələb olunan fəaliyyət növlərinin (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.3-cü maddəyə “peşə” sözündən əvvəl “dövlət peşə təhsili müəssisələri istisna olmaqla,” sözləri əlavə edilsin;

2.2. 5.4-cü maddəyə “orta” sözündən əvvəl “dövlət orta ixtisas təhsili müəssisələri istisna olmaqla,” sözləri əlavə edilsin;

2.3. 5.5-ci maddəyə “ali” sözündən əvvəl “dövlət ali təhsil müəssisələri istisna olmaqla,” sözləri əlavə edilsin;

2.4. 5.6-cı maddəyə “əlavə” sözündən əvvəl “dövlət əlavə təhsil müəssisələri istisna olmaqla,” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 aprel 2020-ci il
58-VIQD